PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.1-11
https://doi.org/10.30546/30015.2025.4.010

# XIX ƏSRİN I YARISINDA RUSİYA İŞĞALININ AZƏRBAYCAN KƏND TƏSƏRRÜFATININ STRUKTURUNA TƏSİRİ

**A.H. Nadirov, B.Ə. Məmmədzadə**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: Afig.Nadirov@au.edu.az, benovse2412@gmail.com

**Xülasə.** XIX əsrin əvvəllərində Rusiya Şimali Azərbaycanı işğal etdi. İşğal kənd təsərrüfatına mənfi təsir göstərdi, feodal münasibətlər qorundu, əkinçilik və maldarlıq məhdud imkanlarla inkişaf etdi, vergi və ticarət məhdudiyyətləri iqtisadiyyata ciddi təsir göstərdi.

**Açar sözlər:** Rusiya işğalı, Azərbaycan tarixi, Şimali Azərbaycan, kənd təsərrüfatı, feodal münasibətlər.

## Giriş

XIX əsrin əvvəlləri Azərbaycanın siyasi və iqtisadi tarixi üçün mühüm dövr hesab olunur. Şimali Azərbaycan Rusiya imperiyasının nəzarətinə keçərək işğal şəraitinə daxil oldu. Bu proses yalnız siyasi hakimiyyətin dəyişməsinə səbəb olmamış, həm də yerli iqtisadiyyatın, xüsusilə kənd təsərrüfatının strukturuna ciddi təsir göstərmişdir. Feodal münasibətlərin hələ də dominant olduğu bu dövrdə kəndlilər əsasən öz təsərrüfatlarını idarə edir, əkinçilik və maldarlıq kimi sahələr məhdud imkanlarla fəaliyyət göstərirdi. İşğalın gətirdiyi vergi və ticarət məhdudiyyətləri kənd təsərrüfatının inkişafına əlavə çətinliklər yaratmışdır. Bu səbəbdən, XIX əsrin birinci yarısında Azərbaycan kənd təsərrüfatının vəziyyəti və onun Rusiya işğalından təsirləri mövzusu elmi araşdırma üçün aktuallıq kəsb edir.

## Tədqiqat

XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlara bölünmüşdü və bu, onu xarici müdaxilələrə qarşı zəif vəziyyətə salmışdı. Azərbaycanın Rusiya tərəfindən işğalının başlanğıcı 1801-ci il Şərqi Gürcüstanla birlikdə Qazax və Şəmşəddil sultanlıqlarının öz ərazisinə qatması ilə başladı. Daha sonra 1804-cü ildə Gəncənin ələ keçirilməsi oldu və bu hadisə Azərbaycanın işğalının faktiki başlanğıcı oldu. Növbəti illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri işğalı rəsmiləşdirdi. Bildiyimiz kimi, Gülüstan müqaviləsi 1813-cü ildə I Rus-İran müharibəsi [1804-1813] nəticəsində bağlanmış və Azərbaycanın şimal xanlıqları Qarabağ, Şəki, Quba, Şirvan, Bakı və s. Rusiyaya birləşdirildi və ilkin mərhələ başa çatdı. Lakin 1826-1828-ci illərdə II Rus-İran müharibəsi başladı. Müharibə Rusiyanın qələbəsi ilə nəticələndi və 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsi ilə İrəvan və Naxçıvan xanlıqları da Rusiyanın tərkibinə daxil edildi [1, s.2].

XIX əsrin ilk yarısında Azərbaycan kənd təsərrüfatı feodal münasibətlərin təsiri altında idi. 1804, 1812 və 1826-cı illərdə Rusiya-İran müharibələri və yadelli qoşunların basqınları əkin sahələrinə və mal-qaraya böyük ziyan vurmuş, minlərlə ailəni evsiz qoymuşdu. Buna baxmayaraq, kəndlilər fasilələrdən istifadə edərək məhsul istehsalını bərpa edir, taxıl, mal-qarası, ipək və digər məhsullar həm yerli tələbatı ödəyir, həm də bazara çıxarılırdı. XIX əsrin 40-cı illərində kənd təsərrüfatı tədricən bərpa olunmuş, lakin feodal rüsumlar və gömrük maneələri ticarəti məhdudlaşdırırdı [2, s.62-63].

Azərbaycan üçün müstəqilliyin itirilməsi, imperiya idarəçiliyinə keçid və ictimai-iqtisadi münasibətlərin dəyişməsi dövrü başladı. Bu proseslər burada feodal özbaşınalığına son qoyaraq, gələcəkdə əsrin ortalarından etibarən kapitalist münasibətlərin yaranması və milli burjuaziyanın formalaşması üçün zəmin yaratdı. Biz bildiyimiz kimi, əsrin əvvəllərində burada vahid bir dövlətin yaradılmasına mane olan səbəblərdən biri natural təsərrüfatın mövcud olması və iqtisadi və siyasi cəhətdən geri qalması idi [9, s.27].

XIX əsrin birinci yarısında Azərbaycanda gedən ümumi iqtisadi dəyişikliklər kənd təsərrüfatının tərəqqisinə mühüm təsir göstərdi. Məhsuldar qüvvələrin formalaşması, yeni istehsal münasibətlərinin yaranması və torpaqdan səmərəli istifadə bu sahənin inkişafını sürətləndirdi. Əkinçilikdə, xüsusilə taxılçılıqda istehsal miqyası artdı, suvarma sistemlərinin bərpası və yeni torpaq sahələrinin əkilməsi məhsuldarlığı yüksəltdi. Eyni zamanda texniki bitkilərin və ipəkçilik sahələrinin inkişafı gözə çarpırdı. Maldarlıq ənənəvi təsərrüfat sahəsi kimi əhəmiyyətini qorumuş, qoyunçuluq və iribuynuzlu heyvandarlıq geniş yayılmışdı [8, s.80-84].

Çar hökuməti müstəmləkə siyasəti yürüdərkən, imperiyanın ucqar bölgələrində kənd təsərrüfatının müəyyən səviyyədə inkişaf etməsinə də maraq göstərirdi. Bu siyasətin məqsədi həmin ərazilərin iqtisadi potensialından daha səmərəli şəkildə istifadə etmək idi. Məhz bu niyyətlə Cənubi Qafqazda müxtəlif kənd təsərrüfatı cəmiyyətlərinin yaradılması təşviq edilirdi.

Rəsmi məmurlar yerli əkinçilik təcrübələrinin tətbiqini və daha səmərəli kənd təsərrüfatı üsullarının yayılmasını vacib sayırdılar. Onlar hesab edirdilər ki, bu kimi tədbirlər nə qədər tez həyata keçirilsə, imperiya bir o qədər çox kənd təsərrüfatı məhsulu əldə edəcək. Bu istiqamətdə atılan addımların nəticəsi kimi 1850-ci il martın 29-da “Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti” təsis olundu [4, s.13]. Cəmiyyətin fəaliyyəti əsasən Şimali Azərbaycanda kənd təsərrüfatının gəlirliliyini artırmaq məqsədi daşıyırdı. Bu məqsədlə müxtəlif layihələr reallaşdırılmış, yeni becərmə üsulları tətbiq olunmuşdu. Bununla yanaşı, yerli əhalinin kənd təsərrüfatına olan marağı və təşəbbüskarlığı da bu prosesdə mühüm rol oynamış və ümumi inkişaf istiqamətinə

öz təsirini göstərmişdi [7, s.5–8]. 1850-ci ildə Tiflisdə təşkil olunan sərgi Cənubi Qafqazın sənətkarlıq və istehsal potensialını nümayiş etdirmək üçün əhəmiyyətli platforma olmuşdur. Burada Quba xalçaları, Şirvan ipək cecimləri, Şəki ipəyindən hazırlanmış geyimlər və Bakı ilə Qarabağ bölgələrindən gətirilmiş sənət nümunələri sərgilənmiş və yüksək keyfiyyətləri ilə diqqət çəkmişdir. Sərgidə məhsulların qiymətləndirilməsi "Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti"*nin xüsusi komissiyası tərəfindən həyata keçirilmişdir. Komissiya qərarına əsasən, Yelizavetpol və Şamaxı ipəyi "tərifnamə vərəqi", Gəncə indiqosu "tərif rəyi", meyvəqurutma aləti və Lahıc ustasının əl işləri isə pul mükafatı ilə təltif edilmişdir [22]. Sərgi Azərbaycan sənətkarlığının yüksək səviyyəsini göstərməklə, həm də regionun iqtisadi və mədəni dəyərlərinin geniş auditoriyaya çatdırılmasına xidmət etmişdir.

Əsrin əvvəllərindən etibarən Azərbaycanda taxılçılıq genişlənmiş, ümumi məhsul yığımı baş vermişdir. Əsas taxıl növləri buğda və arpa idi və istehsal yerli tələbatı ödəməyə yönəlmiş, bazara çıxan pay isə çox məhdud olmuşdur. Rusiya imperiyasının regionda nüfuzunun artması bəzi inzibati transformasiyalara səbəf olmuşsa da, kənd təsərrüfatında köklü islahatlar keçirə bilməmişdi [4, s.3]. Bu dövrdə ilk dəfə olaraq qarğıdalı bitkisi əkilməyə başlamış, əvvəlcə qarışıq halda, sonralar isə ayrıca sahələrdə becərilmişdi. Yüksək məhsuldarlığına görə bəzi yerlərdə Peyğəmbər buğdası adlandırılmışdı. Darı bitkisinə gəldikdə isə digər taxıl bitkilərindən keyfiyyətinə görə geri qalırdı [2, s.36]. Azərbaycanın torpaqları qədimdən bəri əkinçiliyin beşiyi olmuş, burada həm mədəni, həm də yabanı buğda növlərinin geniş yayılması təsadüfi olmamışdır. Bu zənginliyi ilk dəfə sistemli şəkildə araşdıranlardan biri akademik L. Mustafayev olmuşdur. Onun elmi fəaliyyətinin əsas məqsədi Azərbaycanın buğda genetik ehtiyatlarını öyrənmək və onların təsnifatını aparmaq idi. Aparılan çoxillik tədqiqatlar nəticəsində 6 mindən artıq mədəni və yabanı buğda nümunəsi toplanmış, 150-dən çox müxtəlif forma və 14 əsas növ müəyyən edilmişdir. Bu fakt bir daha göstərir ki, Azərbaycan buğda növlərinin çoxluğu baxımından dünya miqyasında ön sıralarda dayanır [5, s.25].

Xüsusilə maraqlıdır ki, bəzi buğda növləri yalnız Cənubi Azərbaycanın iqlim və torpaq şəraitinə xasdır və dünyanın heç bir yerində onlara rast gəlinmir. Bu, ölkəmizin genetik müxtəliflik baxımından nə qədər unikal olduğunun sübutudur. O dövrdə Şimali Azərbaycanın müxtəlif bölgələrində sarıbuğda, ağbuğda, qaraqılçıq, qırmızıbuğda, kosabuğda, zərdəbuğda, kərəbuğda kimi yerli sortların əkilməsi geniş yayılmışdı.

Nəticə etibarilə, L. Mustafayevin apardığı araşdırmalar sayəsində Azərbaycan buğdaçılıq elmi baxımından yeni bir mərhələyə qədəm qoymuşdur. 1830-1850-ci illərdə buğda istehsalının bölgələr üzrə fərqləri nəzərə çarpırdı. Şirvan və Qarabağ bölgələrində artım olsa da, Qubada

yüngül azalma tendensiyası müşahidə olunmuşdur. Talış bölgəsi isə buğda istehsalında gerilik göstərmiş və burada əsas bitki kimi çəltik (düyü) üstünlük təşkil etmişdir [12, s.330-333]. 1845-ci ildə Xəzər vilayəti rəisinin təqdim etdiyi hesabat, buğda istehsalının göstəricilərini detallı şəkildə əks etdirərək, həmin dövrdə kənd təsərrüfatının struktur və fəaliyyətini anlamağa imkan yaratmışdır [8, s.70].

Arpa XIX əsrin birinci yarısında Azərbaycanın əsas taxıl növlərindən biri hesab olunurdu. Xüsusilə Şirvan və Qarabağ qəza və əyalətləri arpaçılığın inkişaf etdiyi regionlar kimi seçilirdi. Statistik və arxiv materialları göstərir ki, arpa həm qida məqsədi üçün, həm də heyvandarlıqda yem kimi geniş istifadə olunurdu ki, bu da onun əhəmiyyətini daha da artırırdı. XIX əsrin 30-cu illərinin əvvəllərinə dair məlumatlara görə, Car-Balakən dairəsi arpaçılığın inkişaf etdiyi əsas bölgələrdən biri olmuşdur. Həmin dövrdə bu ərazidə təxminən 6.500 tagar (təqribən 6.000 çetvert) arpa əkilmiş, məhsuldarlıq isə orta hesabla 20 dəfə olmuşdur ki, nəticədə hər il təxminən 120.000 çetvert məhsul əldə edilmişdir. Bu göstəricilər arpaçılığın yalnız ailə təsərrüfatları üçün deyil, həm də bölgənin ümumi iqtisadi potensialı üçün strateji əhəmiyyət daşıdığını təsdiqləyir [6, s.215-216]. Digər mənbələrdən məlum olur ki, 1845-ci ildə Şəki əyalətində də arpa istehsalı nəzərəçarpacaq dərəcədə olmuşdur. Rəsmi sənədlər burada arpanın bol məhsul verdiyini və buğda ilə birlikdə əkin sahələrinin mühüm hissəsini təşkil etdiyini göstərir. Bu fakt arpaçılığın XIX əsrdə Azərbaycanın müxtəlif bölgələrində kənd təsərrüfatı sistemində strateji yer tutduğunu, həm daxili tələbatı qarşılamaq, həm də bazara məhsul çıxarmaq baxımından vacib rol oynadığını sübut edir [6, s.217]. Digər əsas taxıl bitkilərindən biri isə düyü (çəltik) olmuşdur. Düyü əsasən Talış vilayətində intensiv şəkildə yetişdirilmişdir. 1830–1832-ci illərlə müqayisədə 1845-ci ildə Talış əyalətində düyü istehsalının həcmi nəzərəçarpacaq dərəcədə artmış, ümumi məhsul əvvəlki 1 milyon puddan təxminən 1,5 milyon pud səviyyəsinə yüksəlmişdir [13, s.131]. Eyni zamanda, Qarabağ və Şirvan bölgələrində də düyü əsas taxıl növü kimi əkilmişdir.

Azərbaycan kənd təsərrüfatında dənli bitkilərin, xüsusilə buğda, arpa və düyünün rolu strateji əhəmiyyətə malik idi. Arxiv və statistik materiallar göstərir ki, bu bitkilər ölkənin müxtəlif bölgələrində geniş sahələrdə əkilmiş, nəticədə dənli əkinçilik kənd təsərrüfatının aparıcı sahələrindən birinə çevrilmişdir. Bununla belə, 1840-cı illərin sonu və 1850-ci illərdə taxıl istehsalında artımın tempi zəifləyib. Bu, əsasən 1846–1847-ci illərdə qəbul olunmuş aqrar qanunlar və kəndlilərin ağır feodal öhdəlikləri ilə əlaqədar olmuş, nəticədə məhsuldarlıqda azalma müşahidə edilmişdir.

Pambıqçılıq sahəsinə gəldikdə isə, işğaldan sonra bu sahədə müəyyən geriləmə ilə nəticələnmişdir. Əsrin əvvələrinə aid məlumatlar məhdud şəkildə olmasına baxmayaraq, bizlərə məlumdur ki, əsas pambıqçılıq mərkəzləri Şirvan, Qarabağ və Quba bölgələri olmuşdur [8, səh.98]. Əsrin əvvəllərində Bakı və Quba qəzalarında pambıqçılıq intensiv surətdə formalaşmış və inkişaf etmişdir. 1829-cu ildə Şirvan əyalətində pambıq istehsalının həcmi 359 pud təşkil etmişdir və bu göstərici yalnız kənd təsərrüfatı baxımından deyil, həm də regional iqtisadi potensialın formalaşmasında strateji əhəmiyyət kəsb etdiyini göstərir [19, s.142].

1845-1850-ci illərdə isə pambıqçılıq sahəsində artım çox az və həmçinin azalmanın çoxalmasına səbəb olan amillər içərisində xaricdən ucuz qiymətə rus parçalarının gətirilməsi və əhali artımının olması idi. Bu qəzalarla yanaşı, Yelizavetpol quberniyasında da yetişdirilməsi ilə bağlı Gürcü çarı V.Bağrationi pambığın birbaşa quberniyada deyil, oranı Kəki və Enisli bölgələrində yetişdirildiyini yazır.

XIX əsrin əvvəllərində Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsi istiqamətində rəsmi dövlət qurumları tərəfindən bir sıra təşəbbüslər həyata keçirilmişdir. 1835-ci ildə Misir və Braziliya mənşəli Ses İsland və Mako sortları ölkəyə gətirilmiş, lakin ilkin təcrübələr istənilən nəticəni verməmişdir [20, s.38; 21, s.213]. 1837-ci ildə aparılan ikinci mərhələdə müəyyən müvəffəqiyyətlər əldə olunsa da, 1839-cu ildə Kankrin, Misir və Şimali Amerika sortlarının becərilməsi ilə bağlı səylər yenidən uğursuzluqla nəticələnmişdir [10, s.557]. Qeyd etmək lazımdır ki, həmin sortlar 1842-ci ildə təkrar sınaqdan keçirilmiş və xüsusilə Şirvan bölgəsində uğurla yetişdirilmişdir [8, s.100]. Paralel olaraq, Cavanşir, Şamaxı, Lənkəran və Şəki qəza və əyalətlərində də pambıqçılıq praktikası mövcud olmuşdur. Çar hakimiyyəti adından Qafqaz canişini Vorontsov uzun lifli pambıq toxumlarını regionlara paylamış, toxum təmizləmə avadanlığı təqdim edən şəxsləri mükafatlandırmış və pambıq yetişdirənlər üçün güzəştli qiymət şərtləri tətbiq etmişdir. Bundan əlavə, pambıqçılara iqlim və torpaq xüsusiyyətlərinə uyğun təlimatlar təqdim olunmuş, bu isə Misir sortunun istehsalının daha geniş miqyasda həyata keçirilməsinə şərait yaratmışdır [12, s.36-37]. 1850-ci illərdə isə xarici sortların əkilməsi dayandırılmış, yerini yerli İrəvan və Mazandaran sortları tutmuşdur ki, bu da pambıqçılığın milli resurslar əsasında davamlı inkişafını təmin etmişdir [11, s.67].

Azərbaycan ərazisində bostançılıq qədim dövrlərdən inkişaf etmişdir. Arxeoloji tapıntılar və tarixi mənbələr göstərir ki, burada qarpız, meyvə və digər tərəvəzlər geniş yayılmışdır. Bostançılıq ənənəsi həm qədim, həm orta əsrlərdə davamlı inkişaf etmiş və müxtəlif bölgələrdə məhsuldar təsərrüfatların formalaşmasına xidmət etmişdir [8, s.96]. Bir sahə kimi isə XIX əsrin əvvəllərində daha geniş inkişaf etmişdir. Bu sahə üzrə əsasən Yelizavetpol quberniyasının Ərəş

və Qazax qəzaları, Bakı quberniyasının Quba, Lənkəran və Cavad qəzaları ixtisaslaşmış rayonlardan idi. Bunun əsasında bostan məhsullarına olan tələbat və əkin sahələrinin genişləndirilməsi əsas yer tuturdu. XIX əsrin Abşeron yarımadasında şimal yarıdan çoxu Coratdan tutmuş Abşeron burnuna qədər olan ərazilərdə üzüm bağları var idi. Burada yeraltı sular çox dayaz olduğundan suvarılmırdı. Lakin bəzi yerlər var idi ki, yüksək ərazilərdə yerləşdiyinə görə ildə yay fəslində üç dəfə suvarılırdı [16, s.59-60].

Bu ərazilərdə meyvə ağacları olaraq ən çox əncir, albalı, armud, gavalı, zoğal, heyva, nar və s. rast gəlinir. Bunlardan ən çox yayılan isə əncir ağacları idi və eyni zamanda üzüm ilə də məşhur olmuşdur. Bunlarla yanaşı burada bir neçə qədim zeytun ağaclarına da rast gəlinir [16, s.42]. Quba əyalətində üzüm bağlarına Mişkür və Şabran mahalının bir neçə kəndində, meyvə bağlarına isə Tüp və Şişpərin mahallarında daha çox rast gəlinirdi. İllik istehsal üzərindən hardasa 1500 çervon qazanc əldə edilirdi. XIX əsrin 30-cu illərində bu sahələr üzrə ayrılan torpaq sahəsi ümumi 1300 desyatin idi.

Lənkəran-Astara bölgəsində əhali qədimdən bostançılıqla məşğul olmuş, burada əsasən meyvə, qarpız və balqabaq kimi məhsullar geniş şəkildə yetişdirilmişdir. Yetişdirilən bostan məhsulları yalnız ailə ehtiyaclarını qarşılamaqla kifayətlənməyib, həm də yerli bazarlarda satışa çıxarılmaqla əlavə gəlir mənbəyi rolunu oynamışdır. Düzdür, burada bağçılıq o qədər də yüksək inkişaf etməmişdir, düyü istehsalı digər mədəniyyətləri sıxışdırmışdır. Hər kənddə ailələr müəyyən sahələrdə bostan əkərək, həm qida təminatını təmin edir, həm də iqtisadi fəaliyyətlə məşğul olurdular. Məhsulların dadı və keyfiyyətinə görə seçilən “kərmək” və digər yerli meyvə növləri xüsusilə bazarlarda tələb görürdü [18, s.119]. Şirvan ərazisində isə bağçılıq zəif inkişaf etmişdir, Şamaxı ərazisində isə əsrin 40-cı illərində bağ fidanlıqları salınmışdır və bu bağların saxlanması üçün vəsaiti dövlət özü qarşılayırdı. Şəki əyalətinin isə Nuxa bölgəsində bağçılıq əsasən geniş yayılmışdır və meyvələri çox yaxşı idi və bu dövrdə daxili istehlak üçün istifadə olunurdu.

Yelizavetpol quberniyasının Ərəş qəzasının bütün kəndlərində bostan bitkiləri becərilirdi və buradan əldə olunan məhsullar nadirən satışa çıxarılırdı. Burada yetişdirilən Ağdam qarpız növü həm dadına, həm də keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhur olmuşdur. Eyni zamanda buranın üzümçülüyünü xüsusilə qeyd etmək lazımdır. Dadı çox yaxşı olduğundan bundan hazırlanan şərablar da fərqlənirdi və 1900 vedrə hazırlanırdı [17, s.222]. 1840-cı illər ərzində burada qara istiot bitkisi ilə birlikdə zeytun ağacları da becərilirdi. Şəmşədil dairəsində 259 üzüm və meyvə bağı var və bunlardan 4500 vedrə şərab istehsal olunurdu, rəngi ağ idi, lakin dadı o qədər yaxşı deyildi və tez xarab olurdu. Qazax dairəsində 40-cı illərdə üzümçülük

əsas sahə olaraq qalırdı. 600 bağ mövcud idi və 46500 tunq şərab istehsal olunurdu və onun rəngi çəhrayı rəng olurdu və onun da dadı yaxşı deyildi və yerli əhali tərəfindən istifadə edilirdi [14, s.240]. Yelizavetpol bağçılıq sahəsində öndə getməsinə baxmayaraq, şərabçılığı yaxşı deyildi. Naxçıvan dairəsində üzüm bağları maksimum 45 desyatin idi. Bostançılığın səviyyəsinə gəldikdə isə öz keyfiyyətinə, şirin dadına görə fərqlənən tutma qovun da yetişdirirdilər və tək ölkə daxilində deyil, xaricə də ixrac olunurdu. Əgər əkər adı ilə yetişdirilən yemiş bostanından hər hektarından 200 sentiner məhsul əldə edilirdisə, qovun sahəsindən 250 sentiner məhsul alınırdı. Qeyd etmək lazımdır ki, bu yemiş növü tutma üsulu ilə yetişdirilirdi. Əsrin 30-cu illərinə baxanda 40-cı illərdə bağçılıq mədəniyyəti nisbətən yüksəlmişdi. Azərbaycanın əsas bağçılıq mərkəzi Quba qəzası istehsal sahəsi geniş olduğundan o, həm digər qəzaları, həm də Rusiyanı təmin edirdi öz meyvələri ilə [23]. Bu meyvələr arasında əsas mövqe yeri tutan qarpız, Quba alması və qoz ticarət predmetinə çevrilmişdir [26].

Mənbələrə əsasən, ipəkçiliyin ilkin mərhələləri Azərbaycanda olduqca qədim dövrlərə gedib çıxır və ipəkqurdunun bu əraziyə gətirilməsi V əsrə aid edilir [6, s.166]. Bu fakt, regionda ipəkçiliyin formalaşmasının təsadüfi deyil, əksinə, iqtisadi və mədəni inkişafın tərkib hissəsi kimi meydana gəldiyini göstərir. Qədim dövrlərdən bəri ipəkqurdu bəslənməsi və ipək istehsalı, Azərbaycanın təbii-iqlim şəraiti ilə uzlaşaraq, sonrakı əsrlərdə sənətkarlığın və ticarətin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Xanlıqlar dövrünün son mərhələsində, yəni XIX əsrin əvvəllərində, Azərbaycanda ipəkçiliyin inkişaf səviyyəsi kifayət qədər yüksək idi. 1809-cu ildə təkcə Şamaxıda gün ərzində minlərlə pud xam ipək istehsal olunması bu sahənin region iqtisadiyyatında mühüm yer tutduğunu göstərir. İpəkçilik təsərrüfatı əsasən Şirvan, Şəki, Gəncə, Qarabağ, Cəbrayıl, Zaqatala və Naxçıvan kimi bölgələrdə cəmlənmişdi. Xüsusilə Şamaxının Basqal və Mücü kəndlərində ipək parça növləri - "tafta", "darayı" və "qanovuz" kimi qadın geyimlərinə məxsus materiallar istehsal edilirdi. Eyni zamanda "tor" adlı ipək şərflər və "yorğanüzü" kimi örtük materialları toxunurdu. Bu sənət ənənəsi uzun müddət yaşamış və XX əsrin ilk onilliklərinə qədər davam etmişdir [9, s.113-121]. İpəkçilik sahəsində Şəki əyaləti əsrin 20-ci illərində ön sırada, ikinci yerdə isə Şirvan idi. İşğaldan sonra Rusiya çalışdı ki, həm xammal olaraq, həm də satış bazarına çevirsin. O dönəmdə fəaliyyət göstərən Rusiyanın ipək toxuma sənayesi artıq Azərbaycan ipəyinin hesabına dolanırdı, hardasa üçdə ikisindən çoxu. Bu vaxt burada ipək istehsalı artmışdır, hardasa 34000 pud olurdu göstərici və bunun hardasa 11-12 min pudu Nuxa qəzasının, 5000 pudu isə Şirvan əyalətinin, 2000 pudu Quba və Car-Balakən dairəsinin payına düşürdü. Şamaxı qəzası da bu dövrdə öz qüdrətini bərpa etdi və 650-yə yaxın ipək toxuyan dəzgahların sayı oldu.

XIX əsrin başlanğıcında Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı ilə yerli təsərrüfat sistemlərinə, xüsusilə də maldarlığa qarşı yanaşmada ciddi ideoloji fərqlər meydana çıxdı. Rusiya inzibati dairələri Azərbaycan maldarlığını "ibtidai və inkişafdan kənar təsərrüfat forması" kimi təqdim etməklə, onun iqtisadi və sosial dəyərini məqsədli şəkildə aşağı salmağa çalışırdı. Bu siyasət təkcə iqtisadi münasibətləri deyil, həm də yerli əhalinin dünyagörüşünü formalaşdıran ənənəvi təsərrüfat mədəniyyətini nüfuzdan salmağa yönəlmişdi.

Lakin tarixi reallıq tamamilə fərqli mənzərə ortaya qoyur. Şimali Azərbaycanda maldarlıq sahəsi əsrlər boyu coğrafi şəraitə və iqlim xüsusiyyətlərinə adaptasiya olunmuş yüksək peşəkar ənənələrə əsaslanırdı. Yerli əhali heyvanların seçilməsi, çoxaldılması və iqlimə uyğunlaşdırılması sahəsində böyük təcrübəyə malik idi. Bu təcrübə nəticəsində formalaşan təsərrüfat modeli həm məhsuldarlığı, həm də ekoloji dayanıqlılığı ilə seçilirdi. Beləliklə, çarizmin "gerilik" kimi təqdim etdiyi maldarlıq, əslində, xalqın əmək mədəniyyətini, təsərrüfat biliklərini və adaptasiya qabiliyyətini əks etdirən mürəkkəb iqtisadi sistem idi.

Maldarlıq əsrin 30-cu ilinə kimi formalaşma mərhələsində olmuşdur və 30-50-ci illər dövrünün statistikasını göstərən ən mühüm mənbə "Обозрение Российских владений за Кавказом" adlı sənəddir, lakin burada tam dəqiq deyil. Burada 30-cu illərə aid Bakıda 16000, Şəmşəddildə 42000, Yelizavetpolda 4000, Quba əyalətində isə 27000 atın miqdarını göstərsə də, tam dəqiq deyil. Məsələn, sənəddə Bakı əyalətində 20 min, Talışda 36 min, Qazaxda 42 min, Qubada isə 110 min baş iri buynuzlu mal qeyd olunur. Qoyun və keçilər üzrə məlumat nisbətən dolğundur, lakin eşşək, keçi və donuz növlərinə dair göstəricilər natamamdır [15, s.60-61]. Bu səbəbdən XIX əsrin 30-cu illərinə aid məlumatlar etibarlı hesab edilmir və tədqiqatlarda əsasən 1843–1860-cı illərin rəqəmləri istifadə olunur. Həmin dövr üzrə göstəricilər maldarlığın real vəziyyətini daha düzgün əks etdirir.

1843–1858-ci illərin rəsmi məlumatlarına əsasən, Azərbaycanda atçılıq sahəsində ciddi artım müşahidə edilmişdir. Atların sayı 82 972-dən 140 867-yə yüksələrək təxminən 70 faiz artmışdır. Ən yüksək inkişaf Qarabağ və Şirvan qəzalarında, daha zəif göstəricilər isə Bakı və Nuxa bölgələrində qeydə alınmışdır. XIX əsrin ortalarında atçılıq ölkənin təsərrüfat həyatında mühüm yer tuturdu [8, s.80].

İribuynuzlu mal-qarada ən yüksək göstəricilər Şuşa, Şamaxı və Yelizavetpol (Gəncə) qəzalarında qeydə alınmış, bəzi illərdə xəstəliklər səbəbindən kütləvi tələfat baş vermişdir. Naxçıvan, Bakı və Quba qəzalarında isə bu sahə nisbətən zəif idi. Lənkəran və Car–Balakən dairəsində artım meyli daha sabit xarakter daşıyırdı. Kiçikbuynuzlu mal-qaranın (qoyun və keçi) sayı 1843–1857-ci illər arasında üç dəfədən çox artmış, bu, ölkədə sülh və sabitlik

şəraitində kəndli və köçəri əhalinin təsərrüfat fəaliyyətinin genişlənməsi ilə izah olunur [25]. Yelizavetpol və Şuşa qəzaları bu istiqamətdə də lider mövqedə olmuşdur.

Yüklük heyvanları – dəvə, eşşək və məcrların sayı ümumi strukturda azlıq təşkil etsə də, 1840–1850-ci illərdə bəzi qəzalarda, xüsusən Şuşa, Lənkəran və Şamaxıda artım qeydə alınmışdır. Dəvələr yalnız cüzi miqdarda saxlanılır, əsasən ticarət yolları boyunca istifadə edilirdi. Svin (donuz) təsərrüfatı isə dini məhdudiyyətlər səbəbilə yalnız qeyri-müsəlman əhali arasında yayılmış, daha çox Yelizavetpol və qismən Şuşa qəzasında rast gəlinmişdir [24].

Maldarlıqda əmtəə anlayışı, heyvan məhsullarının satış və ticarət məqsədilə istehsalını ifadə edir. XIX əsrdə Azərbaycanda qoyun, inək və at məhsulları – yun, süd, dəri və ət – əsas əmtəə malları olmuşdur. 1845-ci ildə Azərbaycanda 87 900 atın yalnız 2 750-i (3,1%) satış üçün çıxarılmışdı. İribuynuzlu mal-qarasından 19 150 baş (8,7%), qoyunlardan isə 89 000 baş (11,7%) satışa yönəldilmişdi. Ticarətçilik ən çox atçılıqda inkişaf etmiş, iribuynuzlu mal-qarası və qoyunçuluqda orta səviyyədə, digər sahələrdə isə minimal idi. Eyni zamanda, altı qəza üzrə bir ildə yalnız 20 560 pud yağ, 23 270 pud pendir, 11 860 pud donuz yağı və 40 500 dəri satışa çıxarılmışdı. Bu göstəricilər göstərir ki, heyvandarlıq əsasən öz istehlakı üçün aparılırdı. 1850-ci illərdə ticarət yönümlülük tədricən artmağa başladı, lakin natamam istehsal hələ də üstünlük təşkil edirdi [8, s.92].

**Nəticə**

XIX əsrin birinci yarısında Rusiya işğalı Şimali Azərbaycanın kənd təsərrüfatının strukturuna dərin və çoxsahəli təsir göstərmişdir. İşğal nəticəsində feodal münasibətlərin qorunması, torpaq və suvarma sistemlərinin köhnə formalarının saxlanılması, həmçinin əkinçilik və maldarlığın primitiv üsullarla davam etməsi kənd təsərrüfatının inkişafını əngəlləmişdir. Maldarlığın, xüsusilə atçılığın zəif inkişafı və vergi siyasətinin ağır olması kənd əhalisinin iqtisadi imkanlarını məhdudlaşdırmışdır. Ümumilikdə, Rusiya hakimiyyəti dövründə kənd təsərrüfatı struktur baxımından dəyişsə də, bu dəyişikliklər modernləşmə deyil, iqtisadi asılılığın və durğunluğun artması ilə nəticələnmişdir.

**Ədəbiyyat**

1. Abdullayev M., (2005), Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər), Bakı, Adiloğlu, 232 s.
2. Azərbaycan tarixi, (2007), Yeddi cilddə, IV cild (XIX əsr), Bakı, Elm, 504 s.
3. Bünyadov T.A. (1969), Azərbaycanda əkinçiliyin inkişafı tarixindən, Bakı, Elm, 187 s.

4. Həsənov U. (1994), Qafqaz kənd təsərrüfatı cəmiyyətinin yaranması və onun Azərbaycanda fəaliyyəti, Bakı, ADPİ-nin nəşri, 141 s.
5. Mustafayev İ.D. (1964), Azərbaycan bir çox buğda növlərinin vətənidir, Bakı, Azərnəşr, 44 s.
6. Vəliyev T.T. (1977), XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi, Bakı, Elm, 166 s.
7. Zayev Q.Q., Jejel N.Q. (1966), Ümumi əkinçilik, Bakı, Maarif, 600 s.
8. Сумбатзаде А. С. (1958), Сельское хозяйство Азербайджана в XIX веке, Баку
9. Азарбајчан етнографијасы, (1988), 3 чилддa, 1 чилд, Бакы, Елм, 456 с.
10. АКАК, т. IX, док. 557
11. Газ. «Кавказ», №№ 67 за 1862 г.
12. Кавказский календарь, (1870), Тифлис, s. 330–333.
13. Обозрение Российских владений за Кавказом, (1836), Санкт-Петербург, ч. IV, стр. 131.
14. Обозрение Российских владений за Кавказом, в статистическом, этно-графическом, топографическом и финансовом отношениях. ч. I. СПб.
15. Обозрение Российских владений за Кавказом, в статистическом, этно-графическом, топографическом и финансовом отношениях, (1836), ч. IV. СПб
16. Обзор действий наместника Кавказа для развития сельского хозяйства, 1845-1850 гг, (1851), Тифлис
17. Обзор Елисаветпольской губернии за 1897 г.
18. Очерк сельского и лесного хозяйство Ленкоранского уезда, Бакинской губернии, (1914), Баку
19. Памятная книга Елисаветпольской губернии на 1914 г. (1914), Тифлис, стр. 142.
20. Статистические труды И. Ф. Штукенберга, статья XI, Описание Закавказского края. (1859), СПб, стр. 38.
21. Сельскохозяйственная газета, восьмое полугодие (01.01–01.07.1838), СПб., № 27, стр. 213.
22. Труды Кавказского общество сельского хозяйства, № 1-2, 1889.
23. ЦГИАЛ, Ф. 1268, 1852 г., д. 393, л. 42.
24. Центральный Государственный Исторический Архив Грузии, ф. 13, оп. 23, д. 1762.
25. Центральный Государственный Исторический Архив Грузии, ф. 238, оп. 1, д. 74.
26. Гагемейстер Ю. А. Закавказские очерки, ч. II. СПб, 1845.

# THE IMPACT OF THE RUSSIAN OCCUPATION ON THE STRUCTURE OF AZERBAIJANI AGRICULTURE IN THE FIRST HALF OF THE 19TH CENTURY

**A.H. Nadirov, B.E. Mammadzade**
Azerbaijan University, Jeyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** In the first half of the 19th century, Northern Azerbaijan was under Russian occupation. Agriculture was managed according to feudal principles; crop cultivation remained primitive, livestock breeding developed under limited conditions and irrigation and horse breeding were at a weak level.

**Keywords:** Russian occupation, Azerbaijani history, Northern Azerbaijan, agriculture, feudal relations.